UOT 94(479.24)

VÜQAR ABDULLAYEV
Milli Azərbaycan Tarix Muzeyinin doktorantı
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
ORCİD: 0000-0002-4403-8778
abvugar@yahoo.de

ALMANİYADA TƏHSİL ALAN AZƏRBAYCANLI TƏLƏBƏLƏRİN AQİBƏTİ (Freyberq Dağ Akademiası - Berlin universitet arxivlərini araşdırarkən)

DOI: https://doi.org/10.36719/2708-065X/109/133-138

Məqalədə Cümhuriyyət dövründə Almaniyaya göndərilmiş tələbələrin sonrakı taleyindən bəhs olunur. Almaniyanın Freyberq Dağ Akademiyası və Berlin Humboldt Universiteti arxivlərində araşdırma aparan müəllif bu illər ərzində Azərbaycanlı tələbələrin qarşılaşdığı çətinlikləri (xüsusilə maddi) öyrənməklə bərabər, həm də onların uğurlarından, təhsil almaq üçün çalışdıqlarından diplom müdafiələrindən söz açır. Həm də məqalədə o illərdə Berlin şəhərində fəaliyyət göstərən "Azərbaycanlı Tələbələrin Komitəsi"ndən də danışılır. Komitənin Sovet inqilabından sonrakı taleyi komitənin rəhbərliyində ermənilərin təmsilindən sonra, azərbaycanlı tələblərin hər yerdə izlənməsi, bu izlənmənin erməni xislətinə uyğun olaraq Sovet İstintaq orqanlarına ötürülməsi qeyd olunur. Müəllif Vətənə dönən həmyerlilərimizin Vətən üçün canla-başla çalışmasına baxmayaraq, son nəticədə "düşmən" kimi Vətəndən sürgün edilməsini də elə onların izlənməsi ilə əlaqədar olduğu qənaətinə gəlir. Məqaləniin sonunda müəllif arxiv materiallarının araşdırılmasının davam etdiyini də qeyd edir.

Açar sözlər: Cümhuriyyət tələbələri, Freyberq Dağ Akademiyası, Berlin Universitetlərinin arxivləri.

Giriş. Əsası 1992-ci ildə Ümumillilider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan – Almaniya əlaqələri bu günkü günümüzdə bütün sahələrdə inkişaf etməkdədir. Əlbəttə bu sahədə Almaniyada fəaliyyət göstərən Azərbaycan diasporunun rolu danılmazdır. Azərbaycan – Almaniya əlaqələrinin yaranması tarixinə nəzər yetirdikdə, bunun ilk rüşeymlərini yaradanlar təhsil dalınca Almaniya universitetlərinə üz tutan tələbələr olmuşlar. Cümhuriyyət dövründə Almaniyaya təhsil dalınca göndərilənlər... Bu tələbələrin təhsili və onların sonrakı aqibətinə həsr olunmuş dövrü ədəbiyyatımızı vərəqləyərkən bunların əsasən Azərbaycanda mövcud olan arxiv sənədlərinin araşdırılması, həmin şəxslərin qohumlarının, tanışlarının, tələbə yoldaşlarının qoruyub saxlaya bildikləri sənədlər, fotoşəkillər və xatirələrin toplanması nəticəsində yazıldığı məlum olur. Filologiya elmləri doktoru professor Məmməd Cəfərlinin tərtib etdiyi çox zəhmət və dəqiqlik tələb edən "Siyasi Terror və Azərbaycanlı Almanların Taleyi" (2003) kitabı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti arxivindəki istintaq materiallarına əsasən yazılmışdır. Müəllif bu kitabında Almaniyada təhsil almaq üçün göndərilən tələbələrin sonrakı acı taleyindən bəhs etməklə, ilk dəfə olaraq tək Almaniyada deyil, digər Avropa ölkələrinə, həmçinin Rusiya və Türkiyəyə də ezam olunan şəxslərin sayını göstərmişdir. Kitabın dəyərli cəhətlərindən biri də həmin dövrdə Azərbaycanda məskunlaşmış Almanların da acı taleyindən məlumatlar verilməsidir [2, s.49-51].

2016-cı ildə nəfis tərtibatla çap edilmiş "Azərbaycan Cümhuriyyəti Tələbələri" (Müəlliflər: Ədalət Tahirzadə, Oğuz Toğrul Tahirli) kitabı Azərbaycan Cümhuriyyətinin yaranma tarixi ilə bərabər ümumiyyətlə o dövrün təhsilə münasibəti, tələbələr, onların taleyindən ətraflı bəhs edir. Kitabda Avropa ölkələrinə təhsil almaq üçün göndərilən tələbələrin sayı, siyahısı, hər biri haqqında mümkün məlumatlar verilmişdir [5, s.106-115, s.606]. Hər iki kitabda dərc olunmuş məlumatlar və çağdaş dövrü mətbuatımızda təhsil ardıyca göndərilən tələbələrin təhsili xüsusən təhsil zamanı üzləşdiyi çətinliklər, çəkdikləri əziyyətllərə rəğmən diplom müdafiəsinə nail olub-olmamaları və bunun üçün burokratik yazışmalara məruz qalan tələbələrimizin aqibəti ilə tanış olmaq istəyi bizi Almaniya universitetlərinin bəzilərinin arxivllərinə üz tutmağa vadar etdi. Cümhuriyyət tələbələri xaricə göndərməklə bərabər onların xarici ölkələrdə nümayəndəliklərinə də yaradırdı. Belə ki, Berlin Humboldt Universitetinin

arxivində "Azərbaycan Tələblərinin Mərkəzi Komitəsi" ilə Almaniya universitetləri arasında yazışmalar tərəfimizdən aşkarlanmışdır.

I məktub: Almaniyadakı Azərbaycanlı Tələbələr Birliyi 27 fevral 1924 №15, Berlin, Arayış:Bu arayışla təsdiq edirik ki, cənab Mirzə Hacızadə Azərbaycanlı Tələbələr Birliyini Berlin şəhərindəki Xarici Tələbələr Komitəsində təmsil etməlidir.

Sədr: İ. Sultanov

Katib: M. Hacıyev

P.S. Onun ünvanı: Pariser küçəsi 60/4, Berlin

Mənzil 15, Pfbg 6-27 [1, s.19].

II məktub: Almaniyadakı Azərbaycanlı Tələbələrin 27 fevral 1924 №16, Berlin, Arayış: Bu arayışla təsdiq edilir ki, cənab mühəndis Mir İsmayıl Seyidzadə Azərbaycan Tələbələr Birliyinin Berlin şəhərindəli Azərbaycanlı Tələbələrin Komitəsində təmsil olunacaqdır.

Sədr: İ.Sultanov

Katib: İ.Hacızadə [1, s.18].

III məktub: Azərbaycanlı Tələbələrin Mərkəzi Komitəsi 24 iyun 1924, № 79 Berlin: Sizin 13 iyun 1924 cü il tarixli məktubunuza əsasən, Azərbaycanlı Tələbələrin Mərkəzi Komitəsi Sizə bildirir ki, cənab NÜsrət Bra Berlin Universitetinə Xarici Tələblərin nümayəndələyində iştirak etmək üçün nümayəndə kimi təyin edilmişdir: Katib: A.İskəndərli

Ünvan: Berlin 40, Neues Tor, 1№111

Komitənin ünvanı: İskəndər Sultanov

Şarlottenburq,Berlin,158, Pansion Vütle [1, s.16].

Almaniyanın **Freyberq şəhərindəki Dağ Akademiyasının** tələbəsi **Seyid Kamil Sadıxov**un adı ilə rastlaşdıq. Bizi maraqlandıran onun **27 noyabr 1925-ci il**də aldığı **1-ci dərəcəli diplom**u oldu. Yalnız bu diplomu alana qədər həmyerlimizin çəkdiyi əziyyətlər ürəkağrıdıcı idi. Onun alman dilində universitetin rektoruna **30.05.1925-ci il**də yazdığı məktubu oxuyuruq: ***"Sizə altı çertyoj, altı referat və qovluqda üç şəkil təqdim edirəm, lakin aylıq cəmi 68 Marka pul aldığım üçün, xahiş edirəm məni diplom müdafiəsi üçün verəcəyim 30 Marka ödənişdən azad edəsiniz".*** Arxiv sənədlərində ona tələbə fəaliyyəti üçün Bakıdan göndərilən xasiyyətnamə, onun **1918-1919-cu illər**də (**Nəqliyyat Nazirliyi, 157 saylı arayış**) **Sursat və Tüfəng şöbəsi**ndə (Silah zavodu) **şöbə müdiri** işləməsindən bəhs olunur. Arayış **9 may 1920-ci il**də alman dilində Drezden şəhərində notariat idarəsində təsdiq edilmişdir. Təhsilini bitirib vətənə dönən Kamil Sadıxovun **08.06.1925-ci il**də yazdığı məktubla da rastlaşdıq. O yazır: ***"Diplomumu itirdiyim üçün onun surətinin göndərilməsini xahiş edirəm. Bakıdan Almaniyaya gələn şəxsdən xahiş edəcəyəm ki, mənim müraciətim əsasında, 27.11.1925-ci ildə aldığım diplomun surətini Sizdən alıb gətirsin".*** Qəribədir yəqin ki, diplomun surəti o zaman göndərilməyib, çünki başqa bir məktubla da rastlaşdıq. Məktub bu dəfə Drezdendə və 1945-ci ildə eyni xahiş ilə yazılıb və bundan sonra diplomun surəti həmin şəxsə təqdim olunub [3, s.6].

Digər həmyerlimiz, tələbə **Surxay Şaxsuvarov** dur. **13 aprel 1920-ci il**də **Freyberqdə Dağ Akademiyasına** qəbul olunub, **15 iyun 1925-ci il**də həmin Universiteti bitirib. Sənədləri araşdırarkən rast gəldiyimiz məktub daha acınacaqlıdır. O, rektora yazır: ***"Hörmətli rektor, maddi vəziyyətim çox pisdir. Neçə aydır ki, ev kirayəsini verə bilmirəm, bu səbəbdən Sizdən xahiş edirəm ki, semester və kitabxana xərclərini ödəmək üçün son imtahanı verənə qədər mənə möhlət verəsiniz".*** Məktubdan o da məlum olur ki, tələbə hələ 6 həftə əvvəl diplom işini təhvil verib, ancaq diplom müdafiəsi üçün lazımi məbləği ödəmədiyindən diplom müdafiəsinə buraxılmayıb. **22.07.1924-cü il**də rektora yazdığı məktubda oxuyuruq: ***"Xahiş edirəm, xarici tələbələrin diplom müdafiəsi üçün ödəyəcəyim 30 Marka puldan məni azad edəsiniz, çünki xəstə yatdığımdan 50 Marka dərmanlara xərclədim, 80 Marka da borcum var".*** Lakin bütün bunlara baxmayaraq Surxay Şaxsuvarov **15 iyun 1925-ci ildə Freyberq Dağ Akademiyasını 1-ci dərəcəli Diplom** ilə bitirməyə nail olmuşdur [4, s.8].

Həmyerlimiz, tələbə **Hüseyn Nağıyev**in **Berlin** şəhərində təhsil alması haqqındakı sənədlərlə arxiv materiallarında ratslaşdıq. O, özü haqqında **Berlin Kral Kənd Təsərrüfatı Ali Məktəbi**nin **"ACTA" (rəsmi sənəd toplusu-1924-sentyabrda başlayıb 24 dekabr 1924 də bağlanıb)** rektoruna yazır: ***"Berlin, 9 may 1923, Neusses Tor 1A – Hüseyn Nağıyev (Yeni Qəsr 1 A ünvanında) Berlində yaşayır. Zat aliləri (rektora müraciət), mənim iyul ayında baş tutacaq diplom imtahanıma (yeni***

qaydalara əsasən) buraxılmağımı xahiş edirəm. Mən, 13 mart 1897 ci ildə Gəncə (Qafqaz) şəhərində anadan olmuşam və 1917-ci ildə orada Rus 8 sinifli gimnaziyasını bitirmişəm. Daha sonra Kiyev Texniki Ali Məktəbində 1 il təhsil almışam. Rusiyada baş verən qarışıqlar səbəbindən təhsilimi davam etdirə bilməmişəm və vətənə qayıtmışam. 1920-ci il Azərbaycan hökuməti tərəfindən dövlət təqaüdçüsü kimi Almaniyaya Kənd Təsərrüfatı üzrə təhsil almağa göndərilmişəm. 1920-ci ildən Berlin Kənd Təsərrüfatı Ali Məktəbinin rəsmi tələbəsiyəm. 1922-ci ildə artıq köhnə imtahan qaydalarına əsasən diplom imtahanımı vermişəm. İmza Hüseyn Nağıyev. Əlavə olunur: Attestat (orta məktəbi bitirmə şəhadətnaməsi), Təqaüd sənədi. Sənəd 30 iyun 1923-cü il tarixində təsdiq edilmişdir və vərəqin son küncündə katiblik tərəfindən yazılmışdır: Diplom, əvvəlcədən imtahana buraxılmaq üçün ərizə (Azərbaycan Vətəndaşı Hüseyn Nağıyev tərəfindən yeni imtahan qaydalarına uyğun olaraq)" [1, s.3]. Hüseyn Nağıyevin **Berlin Kənd Təsərrüfatı Universitetinin** arxivində saxlanılmış bir neçə məktubunu oxuduq, məlum oldu ki, həmyerlimiz öz təhsilində uğurlu olmuşdur, təcrübə keçmək, kənd təsərrüfatı maşınları ilə tanış olmaq üçün rektorluqdan 14 gün möhlət istəyir. Həm də Berlində yaşamaq çox bahalıdır deyir. Məktub **14.10.1923-cü il**də yazılmışdır. Yenə də maddi çətinlik. Həmyerlimizin növbəti məktubu da rekora ünvanlanmışdır: ***"Yad bir ölkə vətəndaşı olaraq Türk mənşəli olduğum üçün əlaqədar ədəbiyyatın öyrənilməsi mənə olduqca çətindir və buna görə də yavaş-yavaş irəliləyirəm. Bundan əlavə Hamburqda keçirilən ölkələr sərgisinə qatılmaq səbəbindən 8 gün də tərəfimdən itirilmişdir. Xahiş edirəm, bunu nəzərə alasınız".*** Hüseyn Nağıyevin yazdığı məktuba rektorluq tərəfindən müsbət cavab verilmişdir [1, s.5].

Arxiv materiallarını araşdırarkən belə qənaətə gəlirsən ki, həmyerlilərimizə istər Freyberq Dağ Akademiyasında və istərsə də Berlin universitetlərində təhsil alarkən rektorluq və müəllimlər tərəfindən müsbət münasibət bəslənilmişdir, onların yazdıqları məktublar heç vaxt cavabsız qalmamış və etirazla qarşılanmamışdır, əlbəttə ödəniləcək məbləğlər istisna olunmaqla. Lakin Vətən həsrəti ilə geri dönən tələbələr, Vətənə və onun inkişafına yararlı mütəxəssislərin çoxu düşmən kimi qəbul edilmiş və Vətən xaini kimi sürgün edilmiş və ya güllələnmişlər [3, s.3].

Mirzə Hacızadə də həmin illərdə Cümhuriyyət tərəfindən göndərilən tələbələrdəndir. Onun **1922-ci il**də rektora yazdığı məktubu oxuyarkən, bir məqamla qarşılaşdıq, məktubda yazılır: ***"Berlin, Vilmersdorf, 28 yanvar 1922 – Bu ərizə ilə Kənd Təsərrüfatı Müəllimi İmtahanına buraxılmağımı xahil edirəm".*** Deməli Cümhuriyyətin məqsədi tələbələrin bir mütəxəssis kimi hazırlanmasında əlavə, həm də bir müəllim kimi çalışmalarına və öz vətənində kadrların yetişdirilməsinə nail olmaq idi. Elə ona görə də xaricə təhsil dalınca göndərilən tələblərə təhsillərini aldıqdan sonra vətənə dönmələri haqqındakı sənədi imzalamaq tələb olunurdu. Həmin sənəddə digər bölmələr də var idi [1, s.7]. Mirə Hacızadənin **15 noyabr 1922-ci il**də yazdığı başqa bir məktubunda oxuyuruq: ***"Aşağıda imza edən şəxs Mirzə Hacızadə, imtahan verdikdən sonra müəllilik imtahanı üçün tələb olunan 2 yazılı işin mövzusunu seçmək üçün professor Fişerdən mənə kömək etməsini xahiş edirəm".*** Həmyerlimiz haqqında rast gəldiyimiz bir məqamı da qeyd etmək yerinə düşərdi. "Cümhuriyyətin Tələbələri" kitabında, s.606-da, M.Hacızadənin əvvəlcə İtaliyada Roma şəhərində sonra isə Almaniyada oxumağa başladığı ilin qeyri-müəyyən olduğu təəssüflə qeyd edilir. Arxiv materiallarının araşdırılması göstərir ki, o, Roma şəhərində deyil Neapol şəhərində təhsil almış sonra isə **1920-ci ildən noyabr** ayından **Berlin Kənd Təsərrüfatı Universitetin**də təhsil almağa başlamışdır. Arxiv materiallarında onun alman dilində yazdığı tərcümeyi-halına rast gəlirik. ***"Mən, Mirzə Hacızadə, müsəlməm, türk, mərhum Məşədi Yusif Hacı-Hüseyn oğlu 12 sentyabr 1897-ci ildə Gəncədə (Azərbaycan) anadan olmuşam. 1906-cı ilin payızından etibarən "Gəncə Oğlan Gimnaziyası"nda təhsil almışam və 1915-ci ildə may ayında oranı attestat alaraq bitirmişəm. Bir il sonra "Novoaleksandriya Kənd Təsərrüfatı İnstitutu"na, Xarkovda (Rusiya) imtahan verərək qəbul olunmuşam. 1917-ci ilin sonuna qədər orada Fizika, Qeyri-Üzvü Kimya, Botanika, Hüquq elmləri, Meteralogiya üzrə ilkin imtahanları vermişəm. Lakin Rusiya inqilabının yaratdığı əlverişsiz şəraitə görə təhsilimi qəfil dayandırmalı olmuşam və yalnız 1920-ci ilin əvvəlində təhsilimi avropada davam etdirmək imkanı əldə etmişəm. Mən "Neapol Kənd Təsərrüfatı Universiteti"nə qəbul olunmuş, lakin qısa müddət sonra İtaliyanı tərk edərək 1920-ci il noyabrdan etibarən "Berlin Kənd Təsərrüfatı Universiteti"ndə davam etdirmişəm. M.Hacızadə, Berlin, Vilmersdorf, 28 yanvar 1922-ci il. Bu ərizə ilə Kənd Təsərrüfatı üzrə müəllimlik imtahanına buraxılmağımı xahiş edirəm"*** [1, s.11].

Arxiv materiallarında M.Hacızadənin **Berlində, Şarite xəstəxanası**nda, **04 avqust 1922-ci il**də həkim sənədinə də rast gəlirik. Onun xəstəxanada müalicə olunması haqqında yazılır. Eyni zamanda həmyerlimiz haqqında diplom sənədlərinin uğurla müdafiə olunması və geniş biliklər nümayiş etdirilməsi də qeyd edilmişdir. O, 1924-cü ildə Berlin Kənd Təsərrüfatı Universitetini Kənd təsərrüfatı mütəxəssisi kimi bitirərək diplom almışdır [1, s.12]. Bir məqama da nəzər yetirmək vacibdir. Məlum olduğu kimi tələbələrimizin çətinliyi tək maddiyyat sarıdan deyildi, eyni zamanda alman dilini zəif bilmələri də onların təhsilini ləngidirdi. Yaxşı ki, Almaniyada əcnəbi tələbələrə bu problemin həll olunması üçün şərait də yaradılırdı. Arxiv materiallarını araşdırarkən tələbə **Ələkbər Əliyev**in adına verilmiş arayışla rastlaşdıq. Əcnəbilər üçün Alman dili kursları tərəfindən (**Berlin, 26 iyul 1920**) həmyerliyimizə verilən arayışda yazılır: ***"Cənab Ələkbər Əliyev, Azərbaycanlıdır, 8 iyun – 26 iyul 1920-ci il tarixində əcnəbilər üçün təşkil olunmuş kurslarda uğurla iştirak etmişdir. Alman dili üzrə sübut olunmuş bilikləri universitetə qəbul üçün yetərlidir. İmza Romme, Möhür, Böttinger təhsil evi, Xaricilər üçün Alman İnstitutu".*** Məlumat üçün qeyd edək ki, bu institut 1908-ci ildən 1945-ci ilə qədər fəaliyyət göstərmişdir [1, s.2].

Həmyerlimiz **Əliyev Əşrəf** də təhsil illərində maddi çətinliklərlə üzləşmişdir. Onun **Freyberq Dağ Akademiyasının** rektoruna yazdığı məktubundan məlum olur ki, **4 yerdə işləyir** və imtahanlara hazırlaşmaq üçün **8 gün əlavə vaxt** istəyir. **(26.05.1925)**. Növbəti məktubunu **"Tələbə Haqqları Müdafiə Komissiyası"** na ünvanlayan Əliyev **maddi çətinlik çəkdiyi üçün ona güzəşt edilməsini xahiş edir və məktub komissiyanın 3 üzvü tərəfindən imzalanaraq rektora göndərilir və rektor "50 marka güzəşt edilsin**, yazır. Bütün mənəvi, maddi və fiziki çətinliklərə baxmayaraq o, **19.06.1925-ci il**də diplom işini təhvil verə bilmişdir. **17.06.1925-ci** ildə rektora müraciətində yazır: ***"Dağ Mədən sahəsi üzrə mətn kitabçası, çertyoj kitabı və 4 şəkilli qovluq təqdim etdim. Bununla təsdiq edirən ki, bütün bu işləri özüm icra etmişəm və heç kim mənə kömək etməyib"***. Həmyerlimizin daha bir məktubu ilə qarşılaşırıq. Bu da rektora ünvanlanmışıdr: ***"Bununla mən Sizə bildiriəm ki, Dağ-Mədən üzrə sonuncu imtahanımı və diplom işimi təhvil verdim. Diplom işim 5 bölməyə toxunur, 1-ci Maşınqayırma və emal sənayesi, 2-ci Filiz yatağı nəzəriyyəsi, 3-cü Mina tədqiqatı, 4-cü Maşınqayırma, 5-ci Dağ-Mədən işinin qanunları. Eyniz zamanda imtahan verdiyim fənnləri də nəzərinizə çatdırıram. 1-ci Geodeziya, 2-ci Mina tədqiqatı. Maşınqayırma üzrə imtahanımı 1925-ci il yanvar ayında verəcəyimə söz verirəm".*** Məktub rektor tərəfindən qəbul edilib, imzalanıb və icazə verilib. Son imtahanını **05.05.2025-ci il**də verən həmyerlimiz elə həmin ildə **Dağ-Mədən üzrə diplomu**nu müdafiə etmişdir [4, s.2-4]. Freyberq Dağ Akademiyası və Berlin Universitetlərinin arxivlərindəki məlumatlarla tanış olduqca bu illərdə təhsil alan tələbələrimizin əksərinin eyni çətinliklərlə üzləşməsinin şahidi oluruq. Cümhuriyyət dövründə avropa universitetlərinə təhsil almaq üçün göndərilən tələblərin əksərinin Almaniyada təhsil aldığı məlumdur. Lakin bu çətinliyi təkcə Almaniyada oxuyan tələbələr deyil, həmin illərdə Fransa, İtaliya, Rusiya və digər ölkələrdə də təhsil alan tələbələr məlum vəziyyətlə üzləşmişlər. Bunu istinad etdiyimiz mənbələrə əsasən qeyd edə bilərik. Lakin **Berlin** şəhərində təhsil alan tələblərimizin aqibət ilə maraqlanarkən, arxiv materiallarında bir neçə məktub ilə qarşılaşdıq. Məlum olduğu kimi Cümhuriyyətin süqutu və Sovetin qələbəsindən sonra Almaniya universitetlərində təhsil alan tələbələr üçün yaradılmış **"Tələbə İttifaqı Cəmiyyəti"** və ya **"Azərbaycanlı Tələbələr Birliyi Cəmiyyəti"**, **"Sovet Cənubi Qafqaz Tələbələrinin Mərkəzi Börosu"** ilə əvəz edildi və tez bir zamanda həmin büroya sədr azərbaycanlılar deyil ermənilər təyin edildi [1, s.4]. ***"Sovet Cənubi Qafqaz Tələblərinin Mərkəzi Bürosu, Berlin. 02.03.1926-cı il nömrə 88, Bu arayışla təsdiq edirik ki, fəlsəfə fakültəsinin tələbəsi cənab Zorayan Oreqor, Almaniyada Sovet Cənubi Qafqaz Tələbələri Birliyinin nümayəndəsi olaraq, Berlin universitetində Xarici Tələbələr Komitəsində təmsil edilmişdir. Sədr Mikailyan"***. Digər məktub 19 iyun 1924-cü ildə yazılmışdır: ***"Sovet Cənubi Qafqaz Tələbələrinin Mərkəzi Bürosu, Berlin 11/5". "Sovet Cənubi Qafqaz Tələbələrinin Mərkəzi Bürosu bildiirir ki, o, öz nümayəndələyini V.A.S də ("Xarici Tələbə Birliyi – X.T.B") cənab tibb tələbəsi Torosiyyana təhvil vermişdir. Tələbə salamları ilə A. Zorayan".*** **8 iyun 1924-cü il**də yazılmış məktub isə bu mətləblərə aydınlıq gətirir, daha doğrusu bu Arbitraj məhkəməsi haqqında məlumatdır. ***"Berlin şəhəri. Arbitrak Məhkəməsi, Xarici Tələbə Birliyinin nümayəndələyi, Berlin universiteti, otaq 55. İlkin olaraq səhvlərin qarısını almaq məqsədilə Sovet Cənubi Qafqaz Tələbələrinin Mərkəzi Bürosunun adından bəyan etmək istəyirəm ki, sözü gedən ittifaqımız 3 millətin tələbə birliyinin təşkilatıdır: - yəni, Gürcülər,***

Azərbaycanlılar və Ermənilərin. Eyni zamanda qeyd etmək istəyirəm ki, Almaniyada Gürcü Tələbələr Birliyi və Azərbaycan Tələbələr Birliyi adları altında verilən siyahı heç bir şəkildə bütün tələbə səslərini özündə birləşdirmir, yəni miqrantların səslərini özündə əhatə edir. İmza Torossiyan" [1, s.19]. Həmin erməni rəhbərliyi öz millətinin nümayəndələrini ön plana çəkmək siyasətini Almaniyada da davam etdirirdi. Berlin Humboldt Universitetinin arixivində belə bir məktubla rastlaşdıq:

1924-cü ildə Berlin şəhərində təhsil alan tələbələr **"Turan Tələbə Birliyi"** ni təhsis etsələr də Sovet Cənubi Qafqaz Tələbələrinin Mərkəzi Bürosuna zaman-zaman Azərbaycanlı tələbələr sədrlik etsələr belə artıq 1920-ci ildən sonra cəmiyyətə səpilmiş erməni toxumu elə sürətlə cücərirdi ki, tələbələrimizin nəinki Almaniyada taleyini, vətənə dönəndən sonrakı aqibətini də həll edirdi. "Cümhuriyyətin Tələbələri" kitabında qeyd edildiyi kimi Azərbaycanlı tələbələrin pulu hesabına digər millətlərini tələbələri də təhsil alırdılar. Zənnimizcə bu digər tələblərin arasında erməni tələbələr də az olmamışdır. Belə ki, Sovetin qoyduğu qayda üzrə tələblər üçün göndərilən pul vəsaiti **"Cənubi Qafqaz Biliyi"** nə verilirdi və ordakı erməni rəhbərliyi də bu vəsaitləri özllərinə uyğun paylaşıdılar. Alınlarına "oğru", "yalançı", "cəsus" damğası yapışdırılmış Torosiyyanlar, Mikailyanlar və digər yanlar, hətta Arbitraj məhkəməsinə belə müraciət etməkdən utanmırdılar. Sayca tələbələr arasında az olmalarına baxmayaraq, Sovetlərin əli ilə "Cənubi Qafqaz Tələbələr Birliyi"ndə belə sədrliyi ələ ala bilmişdilər. Məqsəd isə bir neçə idi, 1-ci növbədə Azərbaycanlı tələblərin Almaniyada təhsil almasına mane olmaq, buna Azərbaycanda qurulmuş və rəhbərlikdə Nəriman Nərimanov kimi dövlət xadiminə mane olan erməni və rus məmurları da çox çalışırdılar. Onlar tələbləri təhsili yarımçıq qoyaraq geri çağırırdılar. 2-cisi və ən əsası cəsusluq idi. Onlar azərbaycanlı tələbləri hər yerdə: işlədikləri və təhsil aldıqları müəssislərdə izləyir, onlar haqqında yalançı məlumatları toplayaraq Sovet Cəsus Agentliyinə ötürürdülər. Odur ki, təhsil almış mütəxəssislər geri dönəndən sonra öz vətənlərində həmişə izlənmiş və aqibətləri faciəvi olmuşdur. Belə ki, o zaman hakimiyyətdə olan şəxslər ermənilər çox yaxşı dəstəkləyirdi. Hətta birinci dərəcəli diplom alan mütəxəssislər vətənə dönəndən sonra yüksək mükafatlara layiq olanlar belə son aqibətlərini vətəndən xeyli uzaqlarda sürgündə keçirmişlər. Təəssüflə qeyd etməliyik ki, Azərbaycan xalqının sülhsevər niyyəti qarşısında bu gündə erməni xisləti öz çirkin niyyətindən əl çəkmir. Azərbaycanın bu günkü inkişafı onları çox narahat edir. Heç olmasa rəqabət xatirinə özlərinin də bu inkişafa qoşulması üçün isə özlərində nə təpər nə də qüvvət vardır. Arxiv sənədlərini araşdırarkən üzləşdiyimiz çətinliklərdən biri də bəzi həmyerlilərimiz haqqında sənədlərinin Humboldt Dövlət Universitetinin arxivində yerləşdirilməsi idi. İkinci Dünya Müharibəsindən sonra Almaniyanın iki hissəyə bölünməsi üzündən o vaxta qədər mövcud olmuş və Berlin şəhərində yerləşən özəl univeristetlər ləğv olunmuş və onlar Dövlət Humboldt universitetində fakültələr şəklində fəaliyyətlərini davam etdirdiyinə görə onların arxivlər Humboldt Dövlət Universitetinə təqdim olunmuşdur. Bununla bərabər Azərbaycanlı tələbələrin diplom işləri, məktubları və sairə sənədlərinin digər universitet arxivlərində araşdırılması prossesinə davam edəcəyimizdə qərarlıyıq.

Nəticə. Beləliklə, Almaniyanın 2 şəhərində - Freyberq Dağ Akademiyası və Berlin Universitetlərinin arxivlərində apardığımız araşdırmalara əsasən o qənaətə gəlirik ki, Cümhuriyyət dövründə Almaniyaya təhsil almaq üçün göndərilən tələbələr üzləşdikləri çətinliklərə rəğmən mübariz ruhlu olmuş, maddi məhrumiyyətlərə, fiziki və mənəvi çətinliklərə baxmayaraq təhsildə müvəffəqiyyət qazanmağa nail olmuşlar. Arxiv materiallarında aparadığımız araşdırmalarla sübut olunur ki, diplom müdafiəsi üçün bürokratik yazışmalar olsa da bir qədər səbəbli yubanmalar olsa belə adlarını çəkdiyimiz, arxiv materiallarında rast gəldiyimiz tələbələr həqiqətən diplom, bəziləri isə, hətta 1-ci dərəcəli diplom almışlar. Eyni zamanda o illərdə Berlində fəaliyyət göstərən "Tələbə Birliyi Komitəsi" nin sonralar ermənilərin rəhbərliyinə keçməsi tələbələrin maddi və mənəvi çətinliklərlə üzləşməsinin şahidi oluruq. Araşdırmalarımızı davam etdirmək, sonrakı məqalələrdə daha neçə-neçə həmyerlimiz haqında məlumat əldə edəcəyimizə inanırıq.

ƏDƏBİYYAT

1. Berlin Humboldt Universitetinin arxivi. Humboldt-Universität zu Berlin.
2. Cəfərli Məmməd. Siyasi Terror və Azərbaycanlı Almanların Taleyi. Bakı, 2003, 55 s.
3. Freyberq Dağ Akademiyasının arxivi. University Archive | TU Bergakademie Freiberg.

4. Tahirzadə Ədalət, Tahirli Toğrul Oğuz. Azərbaycan Cümhuriyyəti Tələbələri. Bakı, 2016, 1171 s.

ВУГАР АБДУЛЛАЕВ
Докторант Национального музея истории Азербайджана,
Доктор философии по истории искусств

СУДЬБА АЗЕРБАЙДЖАНСКИХ СТУДЕНТОВ, ОБУЧАВШИХСЯ В ГЕРМАНИИ (по материалам университетских архивов Дармштадта, Фрайберга и Берлина)

В статье рассматривается дальнейшая судьба студентов, отправленных в Германию в годы Республики. Автор, проводивший исследования в архивах Горной Академии Фрайберга и университетов Берлина в Германии, не только изучает трудности (особенно финансовые), с которыми сталкивались азербайджанские студенты на протяжении многих лет, но и рассказывает об их успехах, попытках получить образование и защите дипломов. В статье также говорится о действовавшем в те годы в Берлине «Комитете азербайджанских студентов». Судьба комитета после советской революции отмечена тем, что после появления в руководстве комитета армян требования азербайджанцев стали повсеместно выполняться, и это выполнение было передано советским следственным органам в соответствии с армянским характером. Автор приходит к выводу, что, несмотря на то, что наши соотечественники, вернувшиеся на родину, неустанно трудились на благо своей Родины, их последующая депортация с родины как «врагов» была обусловлена преследованиями. В конце статьи автор также отмечает, что исследование архивных материалов продолжается.

Ключевые слова: Студенты Республики, архивы университетов Дармштадта, Фрайберга, Берлина.

VUGAR ABDULLAYEV
Doctoral student at the National Museum of History of Azerbaijan,
PhD in Art History

THE FATE OF AZERBAIJANI STUDENTS STUDYING IN GERMANY (Based on University Archives of Darmstadt, Freiberg, and Berlin)

The article examines the fate of students sent to Germany during the Republic. The author, who conducted research in the archives of Freiberg Mountain Academy and Berlin universities, not only explores the challenges -particularly financial- that Azerbaijani students faced during these years but also highlights their achievements, dedication to education, and diploma defenses. Additionally, the article discusses the activities of the "Azerbaijani Students Committee" in Berlin during that period. The article further addresses the committee's fate following the Soviet revolution, noting the influence of Armenian representatives in its leadership, the widespread monitoring of Azerbaijani demands, and the subsequent transfer of this oversight to Soviet investigative bodies in alignment with Armenian interests. The author concludes that, despite the dedication of Azerbaijani students who returned to their homeland and contributed significantly to their country, they were ultimately exiled as "enemies" due to this surveillance. At the end of the article, the author also mentions that research on archival materials is ongoing.

Keywords: Students of the Republic, archives of the Universities of Freiberg and Berlin.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. Anar İsgəndərov.